**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**MONA ABDELGHANY ZEDAN AMER**

# MİSİR VƏ AZƏRBAYCAN XALQ MAHNILARI VƏ ONLARIN FORTEPİANO İŞLƏMƏLƏRİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sənətşünaslıq üzrə elmlər doktoru, dosent
**Ceyran Emin qızı Mahmudova**

**Rəsmi opponentlər:** sənətşünaslıq üzrə elmlər doktoru, dosent
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Fəttah Xalıq oğlu Xalıqzadə**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Musiqi fənləri və onun tədrisi metodikası" kafedrası.**

Müdafiə "______" may 2016-cı ildə saat 12:00-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində F/D Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" aprel 2016-cı ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent: **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan və Misir xalqları qədim tarixə və mədəniyyətə malik xalqlar sırasındadır. Hər iki xalqı birləşdirən mühüm amillərdən biri də Şərq musiqisi məcmusuna daxil olan zəngin mədəniyyət, ifaçılıq ənənələri, oxşar musiqi alətləri və rəngarəng xalq musiqi yaradıcılığıdır. Müxtəlif xalqlar arasında musiqi əlaqələrinin, uyğun janrların müqayisəli araşdırılması müasir musiqişünaslıq elminin aktual problemlərindən biridir. Bu baxımdan, Azərbaycan və Misir xalqına aid musiqi yaradıcılığının tədqiqi, yayılma arealına görə ən geniş kütlələri əhatə edən xalq mahnıları janrının müqayisəli araşdırılması dissertasiya mövzusunun aktuallığını əsaslandırır. Məlum olduğu kimi, Azərbaycan və Misir xalqları qədim və zəngin mahnı yaradıcılığına malikdir. Ulu keçmişdə yaranan, hər iki xalqın tarixi, yaşayış tərzi, adət və ənənələri ilə əlaqəli şəkildə formalaşan xalq mahnıları bu gün də öz vacib əhəmiyyətini qoruyub saxlamaqdadır.

Digər tərəfdən, zamanın tələblərinə uyğun olaraq, xalq mahnıları əsrlər boyu mövcud olmuş mühitdən çıxaraq, təkcə ənənəvi musiqi alətləri ilə deyil, dünyəvi əhəmiyyət daşıyan Qərb musiqi alətləri vasitəsilə də dünyaya yayılmağa başlamışlar. Bu nöqteyi-nəzərdən, xalq mahnılarının müxtəlif alətlər, xüsusilə də fortepiano üçün işləmələri mühüm əhəmiyyət kəsb edir.

Xalq mahnılarının işlənilməsi Azərbaycan və Misir bəstəkarları tərəfindən yaradıcılıqla, özünməxsus fərdiliklə həyata keçirilmişdir. Bu iki ölkədə xalq mahnılarının fortepiano işləmələrinin, habelə onların müqayisəli tədqiqi janr, forma, üslub, melodiya, harmoniya, faktura, ifadə vasitələri baxımından nəzəri əhəmiyyət daşıyır. Bu baxımdan, dissertasiyanın mövzusu istər iki ölkə musiqişünaslığı, istərsə də ümumən müasir musiqi elminin problemləri baxımından aktual mahiyyət kəsb edir.

Mövzunun daha bir vacib aspekti Azərbaycan-Misir musiqi əlaqələri ilə bağlıdır. Azərbaycan-Misir mədəni əlaqələri XX əsrin ortalarından fəal inkişaf etməyə başlamışdır. Azərbaycan bəstəkarlarının yaratdığı bir sıra əsərlər buna bariz nümunə kimi göstərilə bilər. Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun pianoçu-bəstəkar Elmira Nəzirova ilə birlikdə 1957-ci ildə yaratdıqları fortepiano və simfonik orkestr üçün "Ərəb mövzuları əsasında konsert"[1] bu gün də milli fortepiano məktəbinin ən parlaq nümayəndələrinin repertuarını bəzəyən əsərlərdən biridir. Görkəmli

---

[1]Əmirov F., Nəzirova E. Ərəb mövzuları əsasında konsert. F-no ilə orkestr üçün: iki f-no üçün köçürmə. - Bakı, Azərnəşr, 1966.

bəstəkar və pedaqoq Cahangir Cahangirov 1965-ci ildə Misir xalq musiqisi əsasında Azərbaycan xalq çalğı alətləri orkestri üçün "Misir lövhələri" süitasını [2] bəstələmişdir. Bu əsər Azərbaycanda musiqisevərlər tərəfindən maraqla qarşılanmışdır. Əsərin partiturası nəşr olunmuş və haqqında mətbuatda müsbət rəylər bildirilmişdir.

Azərbaycan musiqiçilərinin Misir Ərəb Respublikasında pedaqoji fəaliyyətlə məşğul olması da xüsusi qeyd olunmalıdır. Belə ki, görkəmli Azərbaycan pianoçulardan - professorlar Arzu Ələsgərov və Rafiq Quliyev, təcrübəli pianoçu-konsertmeyster Ədilə Mayilova, məşhur violin ifaçılarından - professorlar Sərvər Qəniyev və Rauf Adıgözəlov, dirijor Taleh Qəniyev uzun illər Qahirədə pedaqoji və ifaçılıq fəaliyyəti ilə məşğul olmuşlar. Bu musiqiçilər Misir Ərəb Respublikasının musiqi həyatında fəal iştirak edərək, professional ifaçılıq kadrları yetişdirilməsi işində səylə çalışıb.

Bir sıra görkəmli Azərbaycan müğənni və xalq ifaçıları, o cümlədən Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Rəşid Behbudov və başqaları Misirdə dəfələrlə qastrol səfərlərində olublar. Bu əlaqələr Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra daha da inkişaf etmişdir.

Mövzunun aktuallığını əsaslandıran daha bir amil hər iki xalqın mədəniyyət tarixi və musiqi irsi ilə bağlıdır. Azərbaycan və Misir xalqlarının qədim musiqi tarixinə, ənənəvi musiqi irsinə, zəngin xalq mahnı yaradıcılığına malik olması onların birinin ayrı-ayrılıqda və müqayisəli şəkildə araşdırılmasını musiqişünaslıq baxımından aktuallaşdırır.

Bu elmi işin aktuallığı təkcə Misir xalq mahnılarının və onların fortepiano işləmələri ilə bağlı bir sıra mühüm məsələləri ilə yanaşı, nota salınmış Azərbaycan və Misir xalq mahnılarının müqayisəli təhlili ilə əlaqədardır. Azərbaycan xalq musiqisi ilə Misir xalq musiqisi arasında bir çox oxşar xüsusiyyətlər vardır və bu bənzərliyin bariz nümunəsi kimi şifahi ənənəli professional musiqi ənənələrinin yaxınlığını ön plana çəkmək yerinə düşərdi.

Azərbaycan fortepiano musiqisinin öyrənilməsinə keçən əsrin son onilliklərindən başlanmışdır. Məhz bu dövrdən etibarən, fortepiano işləmələri vasitəsilə xalq mahnılarının Avropa musiqi alətlərində ifası üçün geniş imkanlar açılır. Bu problemin müxtəlif aspektlərinin işıqlandırılmasını Qara Qarayev, Fikrət Əmirov və digər Azərbaycan bəstəkarlarının yaradıcılıqlarına həsr olunmuş tədqiqat işlərində görə bilirik.

[2] Cahangirov C.Ş. Misir lövhələri. Azərbaycan xalq çalğı alətləri orkectri üçün. - Bakı, Azərnəşr, 1965.

Mübaliğəsiz demək olar ki, Azərbaycan və Misir xalq mahnılarının fortepiano işləmələrinin əlaqəli şəkildə öyrənilməsi bu günümüzə qədər aparılmadığına görə, belə bir tədqiqat işinə böyük ehtiyac var idi. İki xalqın mədəni əlaqələrinin gündən-günə genişlənməsi və yeni-yeni üfüqlər fəth etməsi bu dissertasiya işinin mövzusunu aktual edir. Bu sahədə indiyə qədər sistemli və konkret addımlar atılmadığı üçün ona diqqət yetirmək və bu səpkidə müəyyən elmi-tədqiqat işlərini reallaşdırmaq lazımdır.

**Mövzunun işlənmə dərəcəsi.** Geniş əhatə dairəsi olan işin ərsəyə gəlməsində, müəllifin istər Misirdə (2000-2004-cü illər), Azərbaycanda (2008-2015-ci illər) təhsil müddəti, istərsə də 2005-ci ildən etibarən icra etdiyi müəllimlik və ifaçılıq fəaliyyətləri ərzində əldə etdiyi məlumat və təcrübədən istifadə olunmuşdur. Bununla yanaşı Azərbaycan və Misirdə bu sahədə fəaliyyət göstərən digər ifaçı və müəllimlərlə də müxtəlif araşdırma, səciyyəli işlər aparılmışdır. Nəticələrin yoxlanılması və təsdiqlənməsi üçün bir çox mənbələrə müraciət olunmuşdur. Bu işlərin bəzilərinə nəzər salmaq yerinə düşərdi.

Misir xalq mahnılarının toplanması, tədqiq olunması və ingilis dilinə tərcümə olunması ilə məşğul olan Bəhicə Sidqi Rəşid bu sahədə bir neçə işlər görmüşdür: 1. “Misir xalq mahnıları” kitabında[3] xalq mahnılarını toplamış, tədqiq etmişdir. Kitab ingilis dilinə tərcümə olunan və hər mahnıya görə sözlərin tələffüz qaydası ilə seçilən musiqi notlarının verildiyi bu tipdə ilk topludur. 1958-ci ildə Misirdə, 1968-ci ildə isə ABŞ-da (Oak Publications, N.Y nəşriyyat evində) çap edilmişdir; 2. “Nil vadisindən 80 mahnı” kitabı[4] ərəb mətnləri ilə birgə musiqi notlarının qeydlərini əhatə edən və ingilis dilinə tərcümə olunmuş topludur; 3. “Uşaqlar üçün Misir xalq mahnı və oyunları” öz növündə ingilis dilinə tərcümə olunmuş və 1967-ci ildə Misirdə çapdan çıxan ilk topludur; 4. Xalq mahnılarının növlərindən biri haqqında olan “Taqtuqa” kitabı 1968-ci ildə çapdan çıxan, 20-dən çox mahnını əhatə edən və musiqi notları ilə yazılmış bu tipdə ilk topludur.

Görkəmli musiqişünas, bəstəkar Əbu-Bəkr Xeyrat “Xalq süitası”[5] adlı məşhur əsərin müəllifidir. Bu əsər 6 Misir xalq mahnısı (onlardan 5-i

---

[3] بهيجة صدقي رشيد. أغاني مصرية شعبية. - القاهرة، مكتبة الأنجلو المصرية، 1982م

[3] Rəşid B.S. Misir xalq mahnıları. - Qahirə Anqlo-Misir kitabxanası, 1982.

[4] بهيجة صدقي رشيد. 80 أغنية من وادي النيل مصر، مكتبة الأنجلو المصرية. - القاهرة، المطبعة الفنية الحديثة، 1971م

[4] Rəşid B.S. Misirin Nil vadisindən 80 mahnı. Müasir incəsənət nəşriyyatı. - Qahirə, Anqlo-Misir kitabxanası, 1971.

[5] محمود كامل الخلعى. الموسيقي الشرقي. - القاهرة، مطبعة التقدم، 1932م، صفحة 65.

[5] Əl-Xəli M.K. Şərq musiqisi. - Qahirə, İnkişaf mətbəəsi, 1932. s. 65

Bəhicə Sidqinin topladığı mahnılar kitabı toplusundan seçilmişdir) əsasında yazılmışdır. Digər bəstəkarlar da bu mahnılardan istifadə etmiş, onları piano, skripka, fleyta və s. bu kimi alətlər, həmçinin orkestr müşayiətində xor üçün yazmış və onların Avropa və Amerikada yayılması üçün ingilis dilinə tərcümə olunmasına kömək etmişlər.

S. Əl-Xolinin "Misirdə milli xalq musiqisi"[6] və "20-ci əsr musiqisində millətçilik"[7] əsərlərində Misir bəstəkarları, Misir musiqisinin inkişaf yolu, xalq mahnılarının fortepiano işləmələrinin təşəkkülü və bu sahədə fəaliyyət göstərən bəstəkarlar barədə ətraflı məlumatlar vardır.

İ.Z.Xurşidin "Xalq mahnıları və mahnı teatrı"[8], Ə.Ə.Mensinin "Qədim və müasir Şərq musiqisi və mahnıları"[9], Ə.Teymurun "Ərəblərdə musiqi və mahnı"[10], Ə.Ə.Mursinin "Xalq mahnısı"[11]əsərlərində Misir xalq mahnılarının tarixi, təsnifatı, növləri, xüsusiyyətləri barədə geniş məlumat öz əksini tapmışdır.

Hazırki dissertasiya işində professor Buseynə Fərid, professor Bilqeys Abbas, professor Umeymə Əmin, professor Nədira Əl-Seyyid və professor Nədiyə Avad kimi Misir Ərəb Respublikasının görkəmli bəstəkar və musiqi xadimlərinin Misir xalq mahnılarının fortepiano işləmələri təhlil edilmişdir.

Azərbaycan musiqişünaslığında mövzunun işlənmə dərəcəsinə bir neçə istiqamətdə baxıla bilər. Birincisi, Azərbaycan xalq musiqsi nümunələrinin, o cümlədən, xalq mahnılarının bəstəkarlar və musiqişünaslar tərəfindən

---

[6]سمحة الخولي. الموسيقى الشعبية القومية فى مصر. - القاهرة، الثقافة الشعبية، 1956م.

[6]Əl-Xoli S. Misirdə milli xalq musiqisi. - Qahirə, Xalq mədəniyyəti, 1956.

[7]سمحة الخولي. القومية في موسيقا القرن العشرين. عالم المعرفة. - الكويت، المجلس الوطني للثقافة والفنون والأداب، 1992م.

[7]Əl-Xoli S. 20-ci əsr musiqisində millətçilik. Bilik dünyası. - Küveyt, Mədəniyyət, İncəsənət və Ədəbiyyat üzrə Milli Şura, 1992.

[8]إبراهيم زكى خورشيد. الأغنية الشعبية والمسرح الغنائى. - القاهرة، الهيئة العامة المصرية للكتاب،المكتبة الثقافية، 1985م.

[8]Xurşid İ.Z. Xalq mahnıları və mahnı teatrı. - Qahirə, Mədəniyyət Kitabxanası, Kitablar üzrə Misir Baş İdarəsi, 1985.

[9] أحمد أبو الخضر منسى. الأغانى والموسيقى الشرقية بين القديم والحديث. - القاهرة، الطبعة الثانية، دار العرب للبستانى، 1965م.

[9]Mensi Ə.Ə. Qədim və müasir Şərq musiqisi və mahnıları. - Qahirə, İkinci nəşr,Əl-Bustani ərəb nəşriyyatı, 1965.

[10] أحمد تيمور. الموسيقى والغناء عند العرب. الطبعة الأولى. - القاهرة، شركة فن الطباعة، 1963م.

[10]Teymur Ə. Ərəblərdə musiqi və mahnı. Birinci nəşr. - Qahirə, Çap sənəti şirkəti, 1963.

[11] أحمد على مرسى. الأغنية الشعبية. سلسلة المكتبة الثقافية، العدد رقم 254. - القاهرة، الهيئة العامة للكتاب، 1970م.

[11]Mursi Ə.Ə. Xalq mahnısı. - Mədəniyyət Kitabxanası Seriyası, 254-cü say. - Qahirə, Kitablar üzrə Misir Baş İdarəsi, 1970.

nota yazılması və işlənilməsi. İkincisi, musiqişünasların Azərbaycan xalq mahnılarının fortepiano işləmələrinə dair məqalələri, dərs vəsaitləri və monoqrafiyaları. Üçüncüsü, Azərbaycan xalq musiqisinə dair nəzəri tədqiqatlar. Dördüncüsü, Azərbaycan fortepiano musiqisinə dair tədqiqatlar.

Azərbaycan xalq musiqisinə dair nəzəri tədqiqatlardan biz Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" [12] və "Azərbaycan türklərinin musiqisi haqqında" [13], Məmməd Saleh İsmayılovun "Azər-baycan xalq musiqisinin janrları"[14], Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti","Azərbaycan xalq musiqisi. Oçerklər" (müəlliflər: Əhməd İsazadə, Əminə Eldarova, Rauf İsmayılzadə, Nəriman Məmmədov, Ramiz Zöhrabov, Bayram Hüseynli)[15], Zemfira Abdullayevanın "Azərbaycan xalq musiqi yaradıcılığı"[16], Yaqut Paşayevanın "Əfrasiyab Bədəlbəyli və Azərbaycan xalq musiqisi"[17] kitablarından yararlanmışıq.

Azərbaycan xalq mahnıları görkəmli bəstəkarlardan Ü.Hacıbəyli, M.Maqomayev, A.Zeynallı, F.Əmirov, Niyazi, S.Hacıbəyov, S.Rüstəmov, Ə.Abbasov, T.Quliyev, N.Əliverdibəyov, C.Cahangirov, M.Mirzəyev, R.Mustafayev, M.Əhmədov, Z.Bağırov, N.Məmmədov, H.Xanməmmədov, F.Quliyeva, S.Kərimi, E.Dadaşova, musiqişünaslardan Ə.İsazadə, ifaçı-pedaqoqlardan E.Nəzirova, S.Əliyev, L.Abbasova tərəfindən nota yazılmış, fortepiano, səs ilə fortepiano, xor ilə fortepiano üçün işlənilmiş, məcmuə şəklində nəşr olunmuşdur[18].

Azərbaycanda xalq mahnılarının işləmələri haqqında maraqlı monoqrafiya və dərs vəsaitləri yazılmışdır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor A.Yusifovanın "Azərbaycan xalq melodiyalarının işlənməsi və

---

[12]Hacıbəyli Ü.H. Azərbaycan xalq musiqisinin əsasları. AzSSR EA Memarlıq və İncəsənət İn-tu. - Bakı, Yazıçı, 1985.

[13] Hacıbəyli Ü.H. Azərbaycan türklərinin musiqisi haqqında, Tərt., ön sözün müəllifi F.Ş.Əliyeva. - Bakı, Adiloğlu, 2005.

[14]İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları. - Bakı, 1984.

[15]Hüseynli B.X. Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası. // Azərbaycan incəsənəti: Məqalələr məcmuəsi. XII buraxılış. - Bakı, Azərb.SSR EA nəşriyyatı, 1968, s. 67-93.

[16]Abdullayeva Z. Azərbaycan xalq musiqi yaradıcılığı. Bakı, Elm və Təhsil nəşriyyatı, 2011.

[17]Paşayeva Y.S. Əfrasiyab Bədəlbəyli və Azərbaycan xalq musiqisi: Sənətşünaslıq n. dər a. üçün təq. ed. dis. - Bakı, AMEA, Memarlıq və İncəsənət İn-tu, 2004.

[18]Azərbaycan bəstəkarları xalq mahnılarını xor üçün, səs ilə simfonik orkestr üçün, müxtəlif tərkibli orkestrlər üçün, fortepiano ilə skripka üçün və s. işləmişlər. Lakin biz dissertasiyada yalnız fortepiano və səs ilə fortepiano üçün işləmələri tədqiq etdiyimiz üçün onların haqqında Girişdə məlumat vermirik.

aranjimanı”[19], “Azərbaycan bəstəkarlarının işləmələri”[20],“Soltan Hacıbəyov. Azərbaycan xalq melodiyalarının işləmələri (nəzəriyyə və praktika)”[21] (rus dilində) dərs vəsaitlərini, professor Z.Abdullayevanın “Azərbaycan xalq mahnıları (not yazısı və fortepiano işləmələri)” monoqrafiyasını (rus dilində)[22] nümunə göstərə bilərik.

Mövzunun işlənmə dərəcəsi Azərbaycan fortepiano sənətinin tarixini və bəstəkarların fortepiano yaradıcılığını da əhatə edir. Bu nöqteyi-nəzərdən Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor T.Seyidovun “Azərbaycan fortepiano musiqisi janrlarının inkişafı” (rus dilində) [23], “XX əsrin Azərbaycan fortepiano mədəniyyəti” (rus dilində)[24] əsərləri qarşıya qoyulan mövzu aspektində maraq doğurur.

Bundan başqa, mövzumuzla bağlı olaraq, “Musiqi dünyası”, “Konservatoriya” jurnallarında dərc olunan bir neçə elmi məqaləni, eləcə də“Muğam ensiklopediyası”, “Musiqi ensiklopedik lüğəti” (rus dilində) nəşrlərində verilən məlumatları işlənmə dərəcəsi kimi qeyd edə bilərik.

Lakin istər ərəb xalq mahnılarına, istərsə də Azərbaycan xalq mahnılarına dair yuxarıda göstərilən mənbələrdə bu xalq mahnılarının fortepiano işləmələri müqayisəli musiqişünaslıq tədqiqatına cəlb olunmamışdır.

**Dissertasiyanın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Azərbaycan və Misir xalq mahnılarının və onların fortepiano işləmələrinin qarşılıqlı tədqiqatı məsələləri musiqişünaslıqda ilk dəfə elmi səviyyədə qoyulmuş və öz həllini tapmışdır;
- Misir Ərəb Respublikasının zəngin mədəni irsinin bir parçası olan Misirin xalq mahnılarının müxtəlif aspektləri haqqında Azərbaycan musiqi elminə geniş məlumat təqdim olunur;
- Azərbaycan və Misirin xalq musiqisində oxşar və fərqli cəhətlər aşkar edilmiş və öz elmi şərhini tapmışdır;

---

[19] Yusifova A. Azərbaycan xalq melodiyalarının işlənməsi və aranjimanı fənni üzrə dərs vəsaiti. - Bakı, Adiloğlu nəşriyyatı, 2004.

[20] Yusifova A. Azərbaycan bəstəkarlarının işləmələri: Ali musiqi məktəbləri üçün dərs vəsaiti. - Bakı, Adiloğlu , 2009.

[21] Yusifova A.N. Soltan Hacıbəyov. Azərbaycan xalq melodiyalarının işləmələri (nəzəriyyə və praktika): Dərs vəsaiti. - Bakı, Mütərcim , 2011.

[22] Абдуллаева З. Азербайджанские народные мелодии. (В записи и фортепианной обработке). - Баку, «Азербайджан», 1992.

[23] Сеидов Т. Развитие жанров азербайджанской фортепианной музыки. Баку, «Єur», 1992.

[24] Сеидов Т. Азербайджанская фортепианная культура XX века. - Баку, 2006.

- İllər ərzində aparılan işlər əsasında həyata keçirilən araşdırmanın əsas elmi yeniliyi həm Azərbaycan xalq musiqisinin, mahnılarının Misirdə tanınması və araşdırılması üçün, həm də Misir xalq musiqisinin və mahnılarının Azərbaycanda tanınması və tədqiqi üçün bir zəmin rolunu oynamasıdır.

Qeyd etmək lazımdır ki, dissertasiya işinin ən böyük və mühüm elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq, Azərbaycan və Misir xalq mahnılarının fortepiano işləmələrinə xüsusi bir fəsil ayrılmışdır. Xalq mahnılarının müxtəlif tərkiblər üçün işlənilməsi istiqamətində Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Soltan Hacıbəyov, Hacı Xanməmmədov, Cahangir Cahangirov, Elmira Nəzirova, Midhət Əhmədov, Musa Mirzəyev, Ramiz Mustafayev, Nazim Əliverdibəyov, Oqtay Rəcəbov kimi görkəmli Azərbaycan bəstəkarlarının və Yusif Cəris, Əbu-Bəkr Xeyrat, Həsən Rəşid, Bilqeys Abbas, Buseynə Fərid, Umeymə Əmin, Nədiyə Avad və Nadirə Əl-Seyyid kimi Misir bəstəkarlarının fortepiano üçün xalq mahnılarının işlənmələrinə geniş yer verilərək müqayisələr aparılmış və onların əsasında müəyyən təhlillər verilmişdir.

Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələri və onların müqayisəli təhlili məsələsi musiqişünaslıqda ilk dəfə olaraq bu dissertasiya işində nəzəri cəhətdən araşdırılmışdır.

Bu nöqteyi-nəzərdən də böyük əminliklə söyləmək olar ki, bu elmi iş iki qardaş xalqın mədəni həyatının bir-birinə daha da yaxınlaşmasına və bir-birinin mədəni irsindən məhsuldar şəkildə qaynaqlanmasına böyük bir töhfə verə bilər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hər iki xalqın görkəmli sənət fədailəri tərəfindən xalq mahnılarının fortepiano işləmələrini çoxsaylı nümunələr əsasında tədqiqi, hərtərəfli araşdırmalar aparmaq və onların nəticələri ilə Misir və Azərbaycan musiqi mədəniyyətinin bu sahədə qarşılıqlı birgə fəaliyyətinə rəvac vermək bu dissertasiya işinin ən mühüm vəzifələrindən biridir. Heç şübhə yoxdur ki, bu tədqiqat işi Azərbaycan alimlərinin və Misir Ərəb Respublikası tədqiqatçılarının gələcəkdə musiqi sahəsində birgə tədqiqatlar aparmalarına təkan verə bilər.

Bu məqsədləri həyata keçirmək üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

1. Misir xalq musiqisinin tarixi, formaları, növlərinin araşdırılması və hər növə aid nümunə kimi konkret nümunələrin təqdim olunması;

2. Misir xalq musiqi qruplarının yaranması və onların xalq mahnı ifaçılığı sahəsində fəailiyyəti barədə məlumat verilməsi;

3. Azərbaycan xalq mahnılarının tarixi, növləri, quruluşu haqqında müfəssəl məlumatların təqdim edilməsi;

4. Azərbaycan və Misir incəsənətində fortepianonun meydana çıxması və istifadəsi tarixinin müəyyənləşdirilməsi;

5. Azərbaycan və Misir xalq mahnılarının fortepiano işləmələri haqqında tarixi və nəzəri şəkildə məlumat verilməsi, müqayisəli təhlilin aparılması.

**Tədqiqatın metodu və metodoloji əsası.** Araşdırmanın təməlini yaratmaq üçün xalq mahnıları sahəsində təhsil, ifaçılıq, təlim və tədris sayəsində əldə etdiyimiz praktik təcrübə və bu müddətdə həyata keçirilən müşahidələr əsas götürülüb. Müşahidələrin və təcrübənin əsaslandırılması üçün, hər iki ölkədə, regionlar üzrə araşdırmalardan, ifaçı və müəllimlərlə aparılan müxtəlif görüşlərin nəticələrindən, geniş əhatəli elmi mənbələrdən və tədqiqatlardan istifadə olunub.

Müqayisəli təhlil musiqi nəzəriyyəsinin əsas müddəaları nəzərə alınmaqla aparılmışdır. Bu zaman görkəmli Azərbaycan alimlərindən Ü.Hacıbəyli, M.S.İsmayılov, R.Zöhrabov, Ə.İsazadə, R.İsmayılzadə, B.Hüseynli, A.Yusifova və digərlərinin Azərbaycan xalq musiqisi janrlarına, muğam sənətinə, xalq mahnı və rəqslərinə, xalq musiqisinin məqam nəzəriyyəsinə aid elmi əsərlərinə, məqalələrinə və elmi nəticələrinə istinad edilir. Bu əsərlərdə xalq musiqisinin təsnifatı, xalq mahnılarının janr bölgüsü və nəzəri xüsusiyyətləri, xalq mahnılarının təhlili və işlənilməsi kimi məsələlərə dissertasiya işimizdə elmi-metodoloji baza kimi əsaslanmışıq.

Dissertasiyanın musiqi təhlilinə dair hissələrində müqayisəli tədqiqat və təhlil metodundan istifadə olunmuşdur.

Bundan başqa, dissertasiyada görkəmli musiqi nəzəriyyəçilərinin (Bəhicə Sidqi Rəşid, Semhe Əl-Xoli, Zeyin Nassar, İbrahim Zeki Xurşid, Bilqeys Abbas, Üzeyir Hacıbəyli, Ramiz Zöhrabov, Gövhər Hüseynova, Leo Mazel və b.) ərəb, Azərbaycan və rus dillərində məqam, musiqi forması və təhlil haqqında monoqrafiya və məqalələrinə təhlil metodologiyası nöqteyi-nəzərindən istinad edilmişdir.

İstər Azərbaycan, istər Misir xalq mahnı yaradıcılığının tarixi inkişafı xalq çalğı alətləri və instrumental xalq musiqisi ilə bağlı şəkildə olduğu üçün dissertasiyada hər iki xalqın musiqi alətləri, onların xalq mahnı ifaçılığı ilə əlaqələri haqqında məlumat verilir. Bundan başqa, xalq mahnıları bəstəkarlar tərəfindən alətlər üçün, o cümlədən, fortepiano, yaxud səs ilə fortepiano üçün işləndiyinə görə, dissertasiyada xalq çalğı alətlərinə, fortepianonun Azərbaycan və Misir musiqi incəsənətindəki roluna dair müddəalar də yer alır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatımızın **obyektini** Azərbaycan, həm də Misir xalq mahnıları təşkil edir. Misir xalq mahnıları, onların formaları, sistemli şəkildə təsnifatı, əsas xarakterik cəhətləri, xüsusiyyətləri, Azərbaycan xalq mahnılarının tarixi və növləri araşdırılmışdır.

Tədiqatın **predmeti** Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələrindən ibarətdir. Bu nümunələrin araşdırılmasında forma modeli tədqiqatın başlıca predmetinə çevrilmiş, məqam, ritm, janr, ifaçılıq və digər amillərə də nəzər yetirilmişdir.

**Tədqiqatın faktiki materialı.** Tədqiqat materialı kimi Misir Ərəb Respublikasının Helvan Universitetinin Mərkəzi kitabxanası, Misirin Musiqi təhsili fakültəsinin Kitabxanasi, Qahirə Opera Evi, Axundov adına Milli Kitabxana, Milli Konservatoriya, Azərbaycan Milli Elmlər Akademiyası və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanalarından əldə etdiyim nümunələrdən istifadə olunub.

**Dissertasiyanın təcrübi əhəmiyyəti.** Apardığımız tədqiqat əsasən fortepiano ifaçıları, müəllimlər və şagirdlər üçün, Azərbaycan və Misir xalq musiqisi tədqiqatçıları, etnomusiqişünaslar, bəstəkarlar, dirijorlar və mövzu ilə əlaqədar müxtəlif musiqiçi və musiqisevərlər üçün nəzərdə tutulmuşdur. Bu səbəbdən, gələcəkdə reallaşdırılacaq bir çox elmi işlərdə (dissertasiya, məqalə və s.) və bədii layihələrdə tədqiqatımızın nəticələrindən istifadə edilə bilər. Az tədqiq olunan sahə ilə maraqlandığımız üçün, araşdırılan problemlər üzrə digər tədqiqatçıların dəstəyinə ehtiyac duyulur. Tədqiqat əhatəli olduğundan, yeni işlər üçün əsas rolunu oynaya bilər.

Misir musiqişünaslığında ilk dəfə olaraq, bu əsərdə Azərbaycanın xalq musiqisi, xalq mahnıları, Azərbaycan bəstəkarlarının fəaliyyəti tədqiq olunur. Tədqiqat işi Azərbaycanda müdafiə olunub, təsdiq edildikdən sonra, eyniliyinin təsdiq olunması üçün tərcümə olunaraq, Misir Ərəb Respublikasının Ali Təhsil Nazirliyinin Universitetlər üzrə Ali Şurasına təqdim olunacaq və bundan sonra müvafiq sahədə fəaliyyət göstərən təhsil müəssisələrinə və kitabxanalara paylanacaqdır. Bu baxımdan tədqiqat işi Azərbaycan musiqisinin Misirdə tanınması və gələcəkdə zəngin Azərbaycan musiqisinin digər sahələrinin Misir və ərəb tədqiqatçıları tərəfindən araşdırılmasına rəvac verəcək mənbə ola bilər.

Həmçinin Azərbaycan musiqişünaslığında da Misir xalq musiqisi və mahnıları, onların fortepiano üçün işləmələri ilk dəfə olaraq araşdırılır və bu baxımdan gələcəkdə bu sahənin, həmçinin Misir musiqisinin digər bölmələrinin daha geniş və əsaslı şəkildə tədqiqi təklif olunur.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş və müzakirəyə təqdim edilmişdir. Tədqiqatın elmi müddəaları və nəticələri müəllifin müxtəlif konfranslardakı məruzələrində, elmi jurnallarda nəşr olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, yeddi bölmə, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından, notoqrafiya, saytoqrafiya və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatən predmeti və obyekti,mövzunun işlənmə dərəcəsi və elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, praktik materialları, nəzəri və təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**DissertasiyanınI fəsli "Misir xalq mahnıları (tarixi, növləri, quruluşu)"** adlanır. Bu fəsil dörd bölmədən ibarətdir.

Fəslin **birinci bölməsi (1.1.) "Misir xalq musiqisi tarixindən"** adlanır. Burada ölkənin xalq mahnılarının tarixi barədə geniş məlumat verilir. Misir musiqi mədəniyyəti uzun bir tarixi dövr keçərək müxtəlif dəyişikliklərə məruz qalsa da, özünəməxsusluğunu qoruyub saxlaya bilmiş və incəsənət xadimləri bu musiqini yaşadaraq nəsildən-nəslə ötürülməsi üçün müxtəlif imkanlardan istifadə etmişlər.

Misir mədəniyyəti qədim tarixə malik olmaqla əsrlərdən bəri onun müxtəlif sahələrini araşdıran tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Misir xalq mahnılarında xalqın tarixi və bu günü, adət və ənənələri, xalq musiqisinin səciyyəvi xüsusiyyətləri öz əksini tapmışdır.

Fəslin **ikinci bölmə (1.2.) "Misir musiqisində xalq mahnılarının növləri"**nin araşdırılmasına həsr olunmuşdur. Misir xalq mahnılarının növləri konkretləşdirilir:

1.Şərti mahnılar "Taqlidiye". Bu mahnılar müasir dövrümüzdə təcrübəli sənətkarlar tərəfindən yaradılır. Onların fərdi şəkildə yazılması, bəstələnməsi, forması, mövzusu, sənət nöqteyi-nəzərindən səviyyəsi aydın şəkildə onların heç də uzaq dövrlərdə yaradılmadığını sübut edir. Müəllifi və bəstəkarı olan bu mahnıların ifa tərzi və mövzusu xalq mahnıları ilə müəyyən dərəcədə səslənsə də, onlardan fərqli olaraq, yaddaşlarda dərin iz salıb uzun müddət yaşaya bilmir və bu qəbildən olan yeni mahnının

yaranması ilə onlar hafizələrdən silinir, lakin Misir xalq ləhcəsində yazılıb onu təqlid etdiyindən xalq ruhuna yaxın olmasıdır.

2.Yayılmış mahnılar "Şəea". Misir xalqının maddi və mənəvi həyatı ilə bilavasitə bağlı olan bu mahnılar xalqın içərisindən çıxmış, onun tarixi irsindən bəhrələnən, xüsusi istedada, geniş səs diapazonuna və ekspromt ifa bacarığına malik olan peşəkar müğənni tərəfindən oxunur. Müğənnilər bu mahnıları xalq ruhuna yaxın elə sadə və mükəmməl şəkildə oxumalıdır ki, xalq kütləri arasında dərin rəğbətlə qarşılansın.

3.Folklor mahnıları. Xüsusi ifaçısı olmayan və yalnız bir müğənni tərəfindən deyil, hər kəs tərəfindən ifa olunaraq müəyyən ictimai yük daşıyan folklor mahnıları yaddaşlarda yaşayaraq və nəsillərdən-nəsillərə ötürülərək, bugünümüzə qədər gəlib çatmışdır. Müəllifi məlum olmayan, amma yaranmasında hər kəsin iştirak etdiyi bu mahnılar xalqın mənəvi ehtiyacına uyğun olaraq bədahətən yaranmışdır.

4. Yardım əlini uzatmağa aparan mahnılar. İnsanların çox sıx şəkildə hərəkətdə olduğu yol kənarlarında yoxsulluq ucbatından dilənçilik edənlərə ianə verilməsinə çağıran bu mahnılar çox bəsit quruluşa, sadə dilə malik olub qrup şəkilində peşəkar müğənnilər tərəfindən ifa olunur. Bəzən belə mahnılar çobanlar, yol kənarında insanlardan əl açıb sədəqə toplayan yoxsullar və öz mallarını satan satıcılar tərəfindən oxunulur.

5.Hekayə formasında olan xalq mahnıları. Bu qəbildən olan xalq mahnılarının əsasını bir hadisənin musiqi dili ilə nəql edilməsi təşkil edir. Süjetli Misir xalq mahnıları yeddi sətirdən ibarət Mavvala daha çox bənzəyir. Zaman ardıcıllığı və müxtəlif məkanların bir-birini izlədiyi bu mahnılara qulaq asan dinləyici xəyallar aləminə qərq olur. "Şəfiqə və Mutavvali", "Həsən və Nəimə" kimi xalq mahnıları süjetli Misir xalq mahnılarına ən parlaq nümunələrdən hesab olunur.

Haqqında bəhs etdiyimiz xalq mahnılarının özünəməxsus xüsusiyyətləri olmasına rəğmən, onların ifa tərzi Mavvalınkı ilə eynidir, deməli, Mavval hekayə şəklində olan xalq mahnılarının ifa olunmasında əsas formadır.

Fəslin **üçüncü bölməsi (1.3.) "Misir xalq mahnılarının formaları"**nın araşdırılması ilə bağlıdır.

Misir folklorşünaslığında xalq musiqi irsi xalq mahnıları, mədhiyyə, uca Tanrını zikr etmə, Mavval, hekayə formasında olan nəğmələr və s. kimi növlərə bölünür.

Misir xalq mahnılarının üç forması vardır: "Yə leyl, yə ayn", Mavval, Taqtuqə."Yə leyl, yə ayn" (Yə leyli, yə ayni) ifadəsi Azərbaycan dilinə "Ey gecə, ey göz" kimi tərcümə olunur. Xalq mahnılarının qeyd edilən bu

forması adətən heç bir ölçü və vəznə malik olmur və sərbəst vəzndə ifa olunur. Bu mahnıların diləyatımlı, asan ifadələri ağır işlərdə çalışan fəhlələrin dilinin əzbəri idi. Ümumən, xalq mahnıları "Yə leyl, yə ayn" ifadəsi ilə başlayır. Hər bir sadə xalq nümayəndəsi hər hansı bir mahnını zümzümə edərkən əvvəlcə bu ifadədən istifadə edirdi. Ərəb ensiklopediyasında bu ifadə fironik və ya qədim Misirdə işlənən, mənası "Oyan, ey gözlərim!" mənasını verən ifadə kimi təqdim olunur.

Mavval bir növ muğamı xatırladır. Tədqiqatçılar Mavvalın forma nöqteyi–nəzərindən üç növə bölündüyünü qeyd edirlər: Bağdad Mavvalı və ya dördpilləli Mavval, Əl-ərac Mavvalı və ya beşpilləli Mavval, Niman Mavvalı və ya yeddipilləli Mavval. Maraqlıdır ki, Mavvalı mövzu baxımından da qırmızı və ağ Mavval adı altında iki qrupa bölürlər. Qırmızı Mavvalın əsas mövzusunu şiddətli məhəbbət motivləri təşkil etdiyi halda, ağ Mavvalın mövzusu yüksək əxlaqi keyfiyyətlər və mənəvi dəyərlər üzərində qurulur. Bəsit bəhrlərdən ibarət olan Mavval mustəfilun, fəulun, mustəfalun və fəalun qəliblərindən təşkil olunur. Xalq musiqilərini ifa edən peşəkar xalq müğənniləri şeir vəznlərinə deyil, daha çox onları müşayət edən musiqiyə üstünlük verirlər ki, bunun da nəticəsində həmin sənətkarların ifasında vəznlər heç də sabit olmur. Mavvalın dörd səciyyəvi cəhəti aşağıdakılardan ibarətdir: müğənninin sərbəstliyi və ekspromtlar etməsi, eyni Mavvalın müxtəlif melodik formalara malik olması, onun ifası zamanı melodik cümlənin qeyri sabitliyi, Mavvalın mətninin şeir vəzinlərinə tabe olmaması.

Misir xalq mahnılarının formalarından biri olan Taqtuqələr adətən xalq həyatı ilə çox sıx bağlı olan mövzuları əhatə etməklə, xalqın adət-ənənələrinin güzgüsü rolunda çıxış edir. Taqtuqə kuplet və nəqarət kimi iki hissədən ibarətdir. Bu nəğmələr nəqarət ilə başlayaraq nəqarət ilə də sona çatır. Nəqarət hər kupletdən sonra təkrarlanır. Nəqarət və kupleti müşayiət edən melodiyalara gəlincə, burada üç əsas xüsusiyyətə nəzər salaq: Birincisi, həm nəqarət hissə, həm də kuplet eyni melodiyanın müşayəti ilə ifa olunur. İkincisi, nəqarət hissə və kuplet ayrı-arılıqda bir-birindən fərqli melodiyalarla ifa olunur. Üçüncüsü, hər bir kuplet özünəməxsus fərqli melodiyalarla ifa olunur.

Misir mədəni irsinin bir qolunu təşkil edən xalq mahnıları həyatın demək olar ki, bütün sahələrini əks etdirən bir güzgüyə bənzəyir. Misir xalq mahnıları aşağıdakı mövzuları əhatə edir: uşaq mahnıları, məhəbbət və toy adətləri, cehiz verilməsi mərasimi, xınayaxdı, kəbin kəsmə mərasimi, zifaf gecəsi, zifaf gecəsindən sonrakı mərasim ilə bağlı xalq mahnıları, əmək mahnıları (əkin-biçin və pambıq toplanması mövsümünün başlanması və s.

bu kimi kənd təsərrüfatı sahəsini əhatə edən mövzular), dəvəçi nəğmələri, su quyularının qazılması ilə bağlı, kollektiv əməyə aid, dini mahnılar, ağılar, vətənpərvərlik mövzusunda, vətən oğullarını hərbi çağırışa səsləyən mahnılar, əxlaq, yüksək mənəvi keyfiyyətlər, insan fəziləti və humanizmi və s. bu kimi mənəvi dəyərlərə aid mövzular.

Fəslin **dördüncü bölməsi (1.4.) "Misir xalq mahnılarının coğrafi nöqteyi-nəzərindən təsnifatı"**nınaraşdırılması ilə bağlıdır.

Misir özünəxas adət-ənənələrinə və fərqli xüsusiyyətlərə malik yeddi folklor regionuna bölünür: Nil çayının şimal sahillərində məskunlaşan misirlilərə xas xalq mahnıları; Şəhərlərdəki xalq mahnıları; Nil çayının deltasında yerləşən kəndlərin xalq mahnıları; Səid regionunun xalq mahnıları; Nuba regionunun xalq mahnıları; Səhrada məskunlaşan əhalinin xalq mahnıları; Süveyş kanalı regionunun xalq mahnıları. Bu mahnılar bir kökə bağlılıq, bir kökdən qaynaqlanaraq yeddi regiona aid folklor nümunələrini, o cümlədən xalq mahnı və musiqilərinə müştərəklik və eynilik keyfiyyətləri bəxş edərək onları birləşdirir.

Misir xalq mahnılarının əsas xarakterik cəhətlərini araşdırarkən ərəb məqamları üzərində dayanmağı vacib sayırıq. Çünki Azərbaycan xalq musiqisində olduğu kimi, Misir xalq mahnıları da melodiya, intonasiya baxımından müəyyən ərəb məqamlarına istinad olunur. Misir ərəb məqamları tetraxordlar vasitəsilə qurulurlar. Ərəb məqamlarında mövcud tetraxordların sayı təxminən 16-dır. Amma əsas ərəb məqamlarını əmələ gətirən tetraxordlarının (jins) sayı 10-dur [25] .

Ərəb musiqisində məqamların sayı həddindən artıq çoxdur. Belə ki, Saleh Əl-Cəzbə Əl-Hələbi (1858-1922) "Həqiqətlər gəmisi" kitabında yazır ki: "Ərəb məqamlarının sayı təxminən 235-ə çatır"[26]. Digər bir elmi mənbə qeyd edir ki, onların sayı 360-a çatır. 1932-ci ildə Qahirədə keçirilən Birinci Beynəlxalq Ərəb Musiqisi Konfransında qeyd olundu ki, Misir və Suriyada mövcud olan məqamların sayı 52-dir. Bu məqamların sayı 52 olsa da, əsas məqamlar say etibarilə 9-dur. Lakin bu 9 əsas məqamın hər birinin 1-ci və 2-ci dərəcəli qohum məqamları vardır. Buna görə məqamların ümumi sayı çoxluq təşkil edir.

Məqamların əksəriyyəti Ərəb Məğrib ölkələrində müxtəlif səs ölçülərində ifa olunur. İraq və Ərəbistan yarımadasında işlənən məqamların

---

[25] Bu tetraxordlardan ikisi quruluş baxımından istisna təşkil edirlər: Navaəsər pentaxord və Teba-Sike trixord quruluşludur.

[26] Əl-Hələbi S.Ə. Həqiqətlər gəmisi. - Suriya, Mədəniyyət Suriya Nazirliyi,1905.

sayı isə 37-yə çatır. Misir xalq musiqisində isə əsas məqamların sayı, qeyd etdiyimiz kimi, 9-dur [27].

Misir xalq çalğı alətləri aşağıdakı üç qrupa bölünür: 1. Simli musiqi alətləri (Rababa, Simsimiyyə, Tanbura); 2. Ağacdan hazırlanmış nəfəsli musiqi alətləri (Sulləmiyyə, Mizmar, Maqrunə, Urğul); 3. Zərb musiqi alətləri (Darabukkə, Riq, Mizhər, Dəf, Cənazə təbili, Mizmar təbili).

Misir xalq musiqi qrupları aşağıdakılardır: Mizmar qrupu; Rababa ifaçıları; Regional xalq çalğı alətlər qrupu; Dini mahnılar ifa edən qrup; Təxtul Arabi (Ərəb təxti).

Misir xalq çalğı alətləri ilə bağlı tam təsəvvür yaranması üçün xalq musiqi alətləri haqqında qısa şəkildə məlumat təqdim edilib. Çünki hər bir xalq mahnısı müəyyən musiqi alətinin müşayiəti ilə ifa olunur.

**Dissertasiyanın II fəsli "Azərbaycan xalq mahnıları (növləri, quruluşu)"** adlanır. Bu tədqiqatda, ilk növbədə, Azərbaycan milli musiqi irsi, xalq mahnıları, onları müşayiət edən xalq çalğı alətləri ansamblları, xalq mahnılarının musiqi dilinin əsaslandığı məqamlar, xalq mahnı işləmələri ilə məşğul olan bəstəkarlar araєdərməıodər.

Azərbaycan xalqı zəngin mənəvi sərvətlərə malik qədim mədəni ənənələrin daşıyıcısı kimi bütün dünyada tanınır. Xalq mahnıları hər bir xalqın tarixinin öyrənilməsinin zəngin mənbəyidir. Bu baxımdan, Azərbaycan xalq mahnıları da istisnalıq təşkil etmir.

Musiqi folkloru digər şifahi xalq yaradıcılığı janrları ilə sıx təmasda, paralel olaraq inkişaf edərək zənginləşmiş və bugünümüzədək gəlib çatmışdır. Əfsanə və rəvayətlər, qaravəlli və nağıllar, holavar və sayaçı mahnıları - bütün bunlar nəsildən-nəslə ötürülərək, Azərbaycan xalqının milli sərvətini təşkil etmişdir.

Azərbaycan xalq mahnıları bu sırada layiqli yer tutaraq, mövzuların geniş əhatə dairəsi, rəngarəng melodik və ritmik məzmunu, tez qavranılan mətni ilə diqqəti cəlb edir. Təbiidir ki, mahnılar xalq və şifahi ənənəli digər musiqi janrları - rəqslər, aşıq musiqisi, muğam sənəti ilə əlaqədə olaraq, müəyyən dərəcədə onların inkişafına da təsir göstərmişdir.

Azərbaycan xalq mahnıları özünəməxsus məqam əsasına, məqam quruluşuna malikdirlər. İlk olaraq qeyd etmək lazımdır ki, milli incəsənətin inkişafında müstəsna xidmətləri olan Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin yeddi əsas məqama əsaslandığını öz fundamental "Azərbaycan xalq musiqisinin əsasları" nəzəri əsərində göstərmişdir.

[27] Misir əsas məqamları ümumən ərəb məqamları ilə eyni ada və quruluşa malikdir (مقامات).

Azərbaycan və Misir xalq mahnılarında əsas məqamlarla verilən nümunələrdən maraqlı bir nəticə əldə olunmuşdur. Belə ki, Azərbaycan xalq mahnılarında Rast, Şur və Segah məqamları daha çox, Hümayun və Çahargah isə az istifadə olunur. Misir xalq mahnılarında isə Bayatı, Rast, Hicaz və Əcəm məqamlarına daha çox, Saba və Sike məqamlarına daha az təsadüf olunmaqdadır. Buna baxmayaraq, həm Azərbaycan, həm də Misir məqamlarının təsnifatları mövcuddur.

Azərbaycan xalq mahnı janrının növləri dörd qrupa bölünür: 1. Əmək mahnıları. Xalq mahnı yaradıcılığının ən qədim növü olan əmək mahnıları əkinçilik və maldarlıqla bağlı əmək mahnılarına bölünərək, kişi, qadın eyni zamanda kişi və qadının müştərək əmək mahnılarına aid edilir; 2. Mərasim mahnıları. Bu mahnılar təsərrüfat və ailə-məişət mövzuları əsasında yaranan mahnılardır; 3. Məişət mahnıları. Məişət mahnıları uşaq, lirik, yumorlu, satirik növlərə bölünür. Bu növlər də özünəməxsusluğuna görə müəyyən növlərə ayrılır; 4. Tarixi mahnılar. Tarixi mahnılar qəhrəmanlıq və qaçaqlara həsr olunmuş mahnılara bölünür.

Azərbaycan xalq mahnıları, xalq çalğı alətləri və onların növlərindən bəhs edərkən dahi Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyli, Fikrət Əmirov və başqalarının xalq mahnılarının toplanması sahəsində böyük xidmətləri və xalq mahnıları haqqında deyilən dəyərli fikirlərinə böyük önəm verilir.

Azərbaycanda xalq musiqi nümunələrinin toplanılması və nota alınması sahəsində aparılan böyük işlər də xüsusi ilə qeyd olunmalıdır. Təməli Ü.Hacıbəyli tərəfindən qoyulmuş bu proses 1932-ci ildən Bülbülün rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində fəaliyyət göstərən Elmi Tədqiqat Musiqi Kabinəsinin işə başlaması ilə daha da sürətləndi. Ölkənin müxtəlif rayonlarına təşkil olunan çoxsaylı ekspedisiyalar zəngin materialların toplanılmasına gətirib çıxardı. Sonradan bu materiallar neçə-neçə mahnı, rəqs, aşıq musiqisi və muğam nümunələrinin nota alınması və dərc olunması ilə nəticələndi.

Azərbaycan xalq mahnılarının inkişafı və ifası prosesində, sözsüz ki, xalq çalğı alətlərinin də vacib rolu olmuşdur. Bu səbəbdən Azərbaycan alətləri haqqında qısa məlumat təqdim etməyi lazım bilirik. Bu zaman əsas etibarilə məşhur orqanoloq-alim, sənətşünaslıq doktoru, professor Səadət Abdullayevanın klassifikasiyasına əsaslanmışıq[28].

---

[28]Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri. (musiqişünaslıq-orqanoloji tədqiqat). - Bakı, Adiloğlu, 2002.

Azərbaycan xalq çalğı alətləri dörd yerə bölünür: 1. Simli alətləri (Tar, Saz, Ud, Qanun, Bərbət, Rud, Rübab, Qopuz, Çoğur, Kamança, Çəqanə Çənq, Şirvan tənburu, Səntur və s.); 2. Nəfəsli alətlər (Tütək, Zurna, Ney, Tulum, Qarmon, Balaban və s.); 3. Zərb alətləri (Qaval "iç səthi", Qaval "bayır səthi", Nağara, Qoşanağara, Dümbək və s.); 4. Özüsəslənən alətlər (Şax-şax, Kaman, Laqqutu və s.).

Azərbayacanda xalq musiqi kollektivləri növləri: Aşıq qrupları; Muğam üçlükləri; Kiçik həcmli muğam kollektivləri; Xalq çalğı alətləri ansamblları; Xalq çalğı alətləri orkestri.

**Dissertasiyanın III fəsli "Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələri**" adlanır. Bu fəsil üç bölmədən ibarətdir.

Fəslin **birinci bölməsində (3.1) "Fortepiano alətinin Misirdə meydana çıxması və Misir xalq mahnılarının ifasında ondan istifadə olunmasının başlanğıcı"** məsələləri araşdırılır.Qərb musiqisinin Misirdə ilk dəfə səslənməsinə Məhəmməd Əli Paşanın (1769-1849) hakimiyyəti illərində rast gəlirik. 1825-ci ildə Məhəmməd Əlinin göstərişinə əsasən ordu quruculuğu sahəsində önəmli rol oynayacaq hərbi musiqi məktəbin inşası reallaşdırılmışdır. İtaliya və Fransadan gələn musiqi müəllimlərinin rəhbərliyi altında Misir əsgərləri burada musiqi notlarını öyrənir, misdən hazırlanan musiqi alətlərində ifa etməyin sirlərini mənimsəyirdilər.

Məhəmməd Əlinin nəvəsi xedivi İsmayıl (1830-1895) hakimiyyətdə olduğu illər ərzində (1863-1879), onun əmri ilə Misirdə Opera Evinin tikintisi həyata keçirilmişdir ki, bu da Afrika qitəsinin və Yaxın Şərqin tarixində ilk Opera Evi kimi dəyərləndirilir. Həmin dövrdən etibarən fortepiano aləti Misirdə yayılmağa başlamışdır.

Misirli bəstəkar və tədqiqatçı Yusif Cəris tərəfindən (1899-1961) ərəb musiqisini, sonra isə dünya musiqisini araşdırmış və simfonik orkestr üçün əsərlər yazan ilk misrli və ilk ərəb bəstəkar olmuşdur. Yusif Cəris Misir ab-havasından doğan və milli ruhu ifadə edən əsərlərin müəllifi olmuşdur. Bu nəsil tədqiqatçılardan Həsən Rəşid (1896-1969) və Əbu-Bəkr Xeyratin (1910-1963) adlarını da qeyd etmək olar. Bu üç böyük bəstəkar, Misir milli musiqisinin ilk nəsil tədqiqatçıları hesab olunurlar və orkestr və opera janrında yazılan müxtəlif əsərlərin müəllifləridir. Bunların arasında piano üçün yazılan əsərləri xüsusilə vurğulamaq lazımdır. Belə ki, Yusif Cərisin 27-dən çox solo piano, 18-dən çox skripka və piano, 1 violonçel və piano üçün yazılmış əsəri, həmçinin 6-dan çox pianonun müşayiəti ilə oxunan musiqi əsərləri vardır. Habelə, Əbu-Bəkr Xeyratın 5-dən çox solo piano əsəri və 2 piano konserti mövcuddur. Qeyd etmək lazımdır ki, müəllifin

piano üçün yazılan əsərləri o dövr üçün ən yaxşı əsərlər hesab olunur. Həsən Rəşidə gəlincə, o, ərəb şerini, ərəb dilində ilk dəfə Misir operası hazırlayan ilk ərəb musiqiçisi olmuşdur. Bu opera əsəri özündə italyan təsiri ilə yanaşı şərq çalarlarını da əks etdirmişdir. Bu sözləri Ahməd Şövqiyə (1868-1932) məxsus olan "Antonionun ölümü" əsəridir. O, həm də dünya musiqi sənətinin bir sıra nümunələrini ərəb dilinə tərcümə etmişdir.

Daha sonra isə, Bəhicə Sidqi Rəşid (1899-1987), professor Buseynə Fərid (1920-2008), professor Bilqeys Abbas (1932), professor Umeymə Əmin (1934), professor Nədira Əl-Seyyid (1935) və professor Nədiyə Avad (1940) kimi misirli bəstəkar və məşhur musiqi xadimləri Misir xalq mahnılarının fortepiano işləmələrinin hazırlanmasında böyük rol oynamışlar.

Hesab edirik ki, Misir bəstəkarlarının piano üçün müxtəlif əsərlər yazmalarına baxmayaraq, piano üçün yazılan Misir xalq mahnılarının sayı elə də çox deyildir. Bunun səbəbi də odur ki, bu mahnıların musiqisi ud, qanun və s. bu kimi Şərq və ərəb musiqi alətlərinə daha çox uyğun gəlir. Ona görə də, məhz piano alətində ifa edilməyə uyğunlaşdırılması üçün, piano üçün yazılan bu mahnıların məqam hissəsinin dəyişdirilməsi çox vacib idi.

Fəslin **İkinci bölməsi (3.2.) "Azərbaycan xalq mahnılarının fortepiano işləmələri"** ilə bağlıdır. Azərbaycanda fortepiano musiqisi cəmi bir əsrlik inkişaf yolu keçməsinə baxmayaraq, böyük nailiyyətlər əldə etmişdir. Əgər sırf fortepiano sənəti ilə bağlı sahəni ayrılıqda nəzərdən keçirsək, burada neçə-neçə məşhur sənətkarların yaradıcılığının şahidi olarıq. Bu sənətkarların şöhrəti Azərbaycanın hüdudlarını çoxdan aşaraq, Müstəqil Dövlətlər Birliyinin və xarici ölkələrin musiqisevərlərini öz sehrinə salmışdır.

Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin yaranması ilə bütün musiqi janrlarında yazılan əsərlərlə yanaşı, xalq musiqi nümunələrinin toplanılması, nota salınması və işləməsi sahəsində də fəal işlər görülür. Şübhəsiz ki, bu sahədə dahi Üzeyir Hacıbəylinin fəaliyyəti danılmazdır.

Şübhəsizdir ki, xalq mahnı nümunələrinin toplanması, nota salınması və işləmələrin aparılması xüsusi dəqiqlik, fədakarlıq tələb edirdi ki, bu yolda Üzeyir Hacıbəylinin yaxın məsləkdaşı Müslüm Maqomayevin, onun tələbələri Asəf Zeynallı, Səid Rüstəmovvə digər istedadlı bəstəkarların böyük rolu qeyd olunmalıdır. Nəhayət, 1927-ci ildə bu işlər öz bəhrəsini verdi - Ü.Hacibəyli və M.Maqomayevin redaktorluğu ilə səs və fortepiano üçün "Azərbaycan türk el nəğmələri" məcmuəsi işıq üzü gördü ki, bu məcmuə bir sıra aspektlərdən maraq doğururdu.

Xalq mahnılarının işləmələri çap olunduqdan sonra artıq müstəqil əsərə çevrilərək ifaçı və tədqiqatçıların ixtiyarına verilir. Fortepiano işləmələri

vasitəsilə onların tətbiq arealı genişlənir, onlar xalq musiqisi sferasından çıxaraq daha geniş dinləyici kütləsinə təqdim oluna biləcək variantda mövcud olur. Deyilənləri istər Azərbaycan və Misir, istərsə də bütün digər xalqlara məxsus xalq mahnılarının işləmələrinə aid etmək olar.

Beləliklə, Azərbaycanda xalq musiqisinin fortepiano üçün işləmələri sahəsində görülən geniş miqyaslı işlərin əsası Üzeyir Hacıbəyli və Müslüm Maqomayev tərəfindən qoyularaq, Asəf Zeynallı, Səid Rüstəmov, Fikrət Əmirov, Qəmbər Hüseynli və başqaları tərəfindən uğurla davam etdirilmişdir.

Dissertasiyada Azərbaycan xalq mahnılarına dair bütün işləmələrin hamısı cədvəl şəklində təqdim edilir.

Fəslin **üçüncü bölməsi (3.3.) "Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələrinin müqayisəli təhlili"**nə həsr olunmuşdur.

Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələrini müqayisəli təhlil etmək və bu zaman fərqli və müştərək cəhətləri aydınlaşdırmaq və konkretləşdirmək üçün nota salınmış 23 Misir və 19 Azərbaycan xalq mahnısı nümunəsindən istifadə edilmişdir. Azərbaycan xalq mahnılarının təhlili Ü.Hacıbəyli və M.Maqomayevin müəllifləri olduğu "Azərbaycan türk el nəğmələri" (1927) məcmuəsi əsasında aparılmışdır.

**Nəticə** bölməsində göstərilir ki, Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələrinin öyrənilməsi, habelə onların müqayisəli təhlili hər iki xalqa aid musiqi folklorunun araşdırılması və işləmələrinin həyata keçirilməsi baxımından maraqlı tədqiqat sahəsi kimi qiymətləndirilməlidir. Məlumdur ki, musiqi folkloru nümunələri və xüsusilə, xalq mahnıları əksər hallarda solo (vokal), a capella, və ya milli xalq çalğı alətlərinin müşayiəti ilə ifa olunur. Həmin nümunələrin milli sərhədləri aşaraq, daha geniş areala yayılması, digər tərəfdən isə, başqa xalqların nümayəndələri tərəfindən ifa olunmasının təmin edilməsi üçün fortepiano işləmələrinin həyata keçirilməsi böyük əhəmiyyət daşıyır - məlumdur ki, məhz fortepiano ən geniş yayılmış Avropa alətlərindən biridir.

Hazırki tədqiqatda həyata keçirilmiş Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələrinin təhlili nəticəsində hər mədəniyyətə ayrılıqda xas olan janr, üslub fərqləri və mövzu spesifikası ilə yanaşı, ümumi cəhətlərin də mövcudluğu aşkar edilmişdir. Dissertasiyada bütün işləmələrin nəzəri xüsusiyyətləri bu fərqli və ümumi qanunauyğunluqların əsasında təhlil olunmuşdur.

Bu bölmədə xalq mahnı işləmələrinin növləri açıqlanmış, fortepiano aləti üçün işləmələrin bəstəkarlıq metodları izah olunmuşdur. Bundan başqa, Misir və Azərbaycan xalq mahnılarının fortepiano işləmələri forma,

məqam, melodiya, ritm xüsusiyyətlərinə görə nəzəri cəhətdən müqayisəli şəkildə təhlil edilmişdir.

Qarşıya qoyulan məsələlərin araşdırılmasına böyük tədqiqat materialı cəlb edilib. Bu zaman araşdırma üçün seçilmiş ən səciyyəvi nümunələrin təhlili nəticəsində xalq mahnılarının geniş şəkildə ifa olunaraq yayılmasında fortepiano işləmələrinin böyük rol oynadığı müəyyən edilib.

Bütövlükdə, aparılan tədqiqat hər iki xalqın mahnı yaradıcılığına, xalq mahnılarının fortepiano işləmələrinə dair bir sıra vacib nəzəri **nəticələr** əldə etməyə imkan vermişdir. Bu nəticələr aşağıdakılardır:

1. Misir xalq mahnılarının özünəməxsus növ və sahələri vardır: uşaq mahnıları, məhəbbət və toy adətləri ilə bağlı mahnılar, əmək mahnıları, dəvəçi nəğmələri, kollektiv əməyə aid mahnılar, dini mahnılar, ağılar, vətənpərvərlik mövzusunda mahnılar, əxlaq və s. bu kimi mənəvi dəyərlərə aid mövzular. Misir özünəxas adət-ənənələrinə və fərqli xüsusiyyətlərə malik yeddi folklor regionuna bölünür.

2. Xalq mahnısının poetik əsasını təşkil edən mətn çox sadədir, başqa sözlə, xalq dilinə çox yaxındır. Xalq mahnıları nəsillərdən-nəsillərə, bir regiondan digərinə şifahi şəkildə ötürülür. Xalq mahnıları xalqın mədəniyyət irsinin növlərindən biri hesab olunaraq, insanların arzu, hiss və daxili aləmini, habelə onların adət-ənənələrini və tarixi keçmişini əhatə edir.

3. Xalq mahnıları müəlliflik baxımından iki qismə bölünür:

Müəllifi olmayan xalq mahnıları; müəllifli xalq mahnıları.

Şifahi ənənəyə əsaslandığı üçün qədim xalq mahnıları müəllifsiz hesab olunurlar. Onları ifa edənlər müəyyən mənada həm onların yaradıcısı, ifaçısı, həm də dinləyicisi olur. Müəllifli xalq mahnıları bir və ya bir neçə şəxs tərəfindən bədahətən yaradılır, bəzən not yazısı ilə, bəzən də şifahi şəkildə yayılaraq, xalq tərəfindən qəbul olunur.

4. Xalq mahnılarının böyük əksəriyyəti yazılı mətnin olmaması və notla bəstələnməməsi ilə səciyyələnirlər. Bu da xalq mahnı yaradıcılığının şifahi yolla yaranması və yaşaması ilə bağlıdır.

5. Misir xalq mahnıları ifaçılıq ənənələri baxımından müxtəlif olması ilə səciyyələnirlər: məharətli ifa, adi ifa, xorla, duet şəklində, solo, solo və xorla ifa və s. Məsələn, xınayaxdı, evlənmə və uşaq oyunları ilə bağlı xalq mahnıları xorla ifa olunduğu halda, fərdi şəkildə əməklə məşğul olarkən və ya körpənin beşiyinin başında səsləndirilən xalq mahnıları tək bir ifaçı tərəfindən (solo) ifa edilir.

6. Misir mahnılarını kuplet quruluşuna görə belə qruplaşdırmaq olar:

Tək kupletlə oxunan mahnılar; iki və daha çox kupletlə oxunan mahnılar; nəqaratsız kupletli mahnılar; nəqaratlı-kupletli mahnılar.

7. Misir xalq mahnılarının əsas xarakterik cəhətlərini hərtərəfli şəkildə araşdırdıqdan sonra onların aşağıda qeyd olunan əsas altı xüsusiyyətini aşkar etmişik:

- Misir xalq mahnılarının musiqisi sadə ritmlər üzərində qurularaq nağara, dəf kimi zərb alətəri ilə yanaşı, bəzi hallarda mətbəxdə işlədilən çini qablar, boş dəmir qutulara və ya masaya döymək və nəhayət çəpik çalmaqla müşayət olunurlar. Bu isə Misir xalq mahnılarının müşayiətində idiofonlu alətlərin tətbiq olunduğunu göstərir.
- Əksər hallarda Misir xalq mahnılarını Sulləmiyyə, Mizmar və Kavalə kimi ağacdan hazırlanmış nəfəsli xalq çalğı alətləri müşayət edir.
- Laylalar və uşaqların müxtəlif oyunlar zamanı ifa etdikləri mahnılar musiqi alətlərinin müşayəti olmadan səsləndirilir.
- Misir xalq mahnıları bir melodik xətt üzərində qurulur, lakin burada müğənninin səs diapozonundan və yaşından asılı olaraq daha vituoz ifa nümayiş etdirə bilər.
- Xalq mahnılarının melodik cümləsi, əksər hallarda iki və ya üç səs üzərində qurulur, lakin müəyyən hallarda səs diapazonu daha geniş ola bilər, hətta bütöv oktavanı əhatə edə bilər.
- Misir xalq mahnılarının musiqisi melodiyanın, ritmin və mətnin bəzi hissələrindəki sözlərin təkrarlanmasına əsaslanır.

8. Misir xalq mahnılarının əksəriyyəti ərəb musiqisində mövcud olan Bayatı, Rast, Əcəm və Nəhavand kimi əsas məqamlarının birinin üzərində qurulur.

9. Misir xalq mahnıları tərkibi, forması, ritmi, dil, melodik və cümlə quruluşu nöqteyi-nəzərindən sadə olmaqla yanaşı, bəzən isə tam bir məqam üzərində qurulması ilə səciyyələnirlər. Xalq mahnıları zaman keçdikcə öz tarixi ərzində növ, forma, melodiya, məqam quruluşu nöqteyi-nəzərindən inkişaf etmişlər.

10. Misir xalq mahnılarında “Bamb-2/4” və “Duveyk-4/4” kimi ikiqat ritmlərdən istifadə edilməsinə daha genış yer verilir. Hər hansı bir xalq mahnısı əvvəldən sona qədər bu ritm növlərindən birinə əsaslanır. Bəzən bu ritmlərin ikisi də bir mahnıda dəyişən xanə ölçüsü kimi iştirak edirlər.

11. Xalq mahnılarında konkret forma, quruluş, məzmun və süjet yaratmaq məqsədilə melodik cümlələrin, motivlərin, ibarələrin təkrar edilməsi mümkündür. Misir xalq mahnılarının forma və quruluşu, melodik inkişafı üçün təkrarlılıq, variantlılıq, sekvensiya kimi xüsusiyyətlər xarakterikdir.

12. Misir xalq mahnılarının fortepiano işləmələri say baxımından çox deyildir. Bunun səbəbi də odur ki, bu mahnıların musiqisi ud, qanun və s. bu kimi milli alətlərdə, daha çox instrumental şəkildə ifa olunur. Buna baxmayaraq, mövcud fortepinao işləmələri dəyərli və maraqlı tədqiqat obyekti kimi tərəfimizdən araşdırılmışdır.

13. Misir xalq mahnılarının fortepiano işləmələrinin notlaşdırılması müəyyən qayda əsasında həyata keçirilir. Belə ki, notlaşdırma zamanı vokal partiya ayrıca not sətrində göstərlimir və fortepiano partiyasının yuxarı registrində (sağ əl üçün nəzərdə tutulan notasiyada) yazılır.

14. Xalq mahnıları fortepianonun müşayiəti ilə müğənnilər tərəfindən əzbər ifa olunur. Misir xalq mahnı işləmələrinə xas cəhətlərdən biri də əsas melodiyanın yalnız müəyyən elementlərinin müşayiətə daxil edilməsidir.

15. Belə notlaşdırma nəticəsində Misir xalq mahnılarının fortepiano işləmələrinin müxtəlif faktura versiyaları yaranmışdır. Burada homofon-harmonik, ikisəsli, polifonik çoxsəsli, homofonik çoxsəsli fakturalara rast gəlinir.

16. Xalq mahnılarının melodik quruluşunda məqam əsası böyük rol oynayır. Mahnının hansı məqama əsaslanması melodik kadensiya vasitəsilə müəyyən olunur. Xalq mahnılarında melodiya hərəkəti axıcı, rəvan, sıçrayışlı, yuxarı, aşağı və qarışıq hərəkətli ola bilir.

17. Melodiya və mahnını təşkil edən sözlər arasında tam uyğunluq və mahnının mövzusu, növü və vəzifəsi arasında bağlılıq olmalıdır. Məsələn, əməklə bağlı mahnılarda melodiya daha fəal və hər hansı bir işin icrasına uyğun bir şəkildə qurulur. Beşik mahnıları isə həzinliyi, axıcılığı və aram-aram ifa olunması ilə səciyyələnir.

18. Azərbaycan xalq mahnıları rəngarəng forma, melodiya və mətn quruluşuna malik nümunələrdən ibarətdir. Azərbaycan xalq musiqisi bütövlükdə uzunmüddətli tarixi inkişaf prossesində formalaşmış milli lad sisteminə əsaslanır.

19. Azərbaycan xalq mahnılarının nota salınmış variantları içərisində harmonizə olunmuşlar əksəriyyət təşkil edir. Nota salma prossesi XX əsrin əvvəllərindən başlamış, Ü.Hacıbəyli başda olmaqla milli bəstəkarlıq məktəbinin bir sıra nümayəndələri xalq musiqisinin toplanması və nota salınmasında fəal iştirak etmişlər.

20. Toplanmış materiallardan bir çoxunda bəstəkarlar sadəcə melodik xəttin qeyd olunması ilə kifayətlənməmiş, onları həm də harmonizə etmişlər.

21. Azərbaycan xalq mahnılarının işlənməsi zamanı bütün musiqili ifadə vasitələrinə müraciət olunur. Lakin burada mahnıların sadə quruluşunun saxlanılması, onların məqam yönümünə, sekvensiya və modulyasi-

yaların tətbiqinə, ritmik şəkillərin saxlanılmasına xüsusi həssaslıqla yanaşılmasının şahidi oluruq.

22. Xalq mahnılarının işləmələrinin araşdırılması göstərir ki, musiqi fakturası böyük əhəmiyyət kəsb edən amillərdən biridir. Konkret mahnı nümunəsinin işlənməsi prossesində monodik, səsaltı, harmonik, polifonik, homofon-harmonik və digər mövcud faktura növlərindən hansının tətbiq olunması bəstəkarın yaradıcılıq metodundan və yanaşma prinsipindən asılıdır.

23. İşlənmə prossesində xalq mahnısının melodiyasına da xüsusi dəqiqliklə yanaşma tələb olunur. Onu əsas kimi saxlamaqla yanaşı, müxtəlif melizmlərin və dinamik işarələrin əlavə olunmasına, diapazon və variant dəyişikliklərinə istər Azərbaycan, istərsə də Misir xalq mahnı işləmələrində rast gəlmək olar.

24. Azərbaycan və Misir xalq mahnı işləmələrinin müqayisəli təhlili belə nəticəyə gətirir ki, onları fərqləndirən əsas cəhət vokal xəttin müşayiətdən ayrılmasıdır. Misir xalq mahnı işləmələrindən fərqli olaraq, Azərbaycan xalq mahnı işləmələrində əsas melodiyanın vurğulanması bir qədər başqa tərzdə verilir. Belə ki, vokal partiyadan əvvəl əsas frazanın fortepiano müşayiətində keçməsi bəzi işləmələrdə özünü göstərir. Bəzi işləmələrdə isə vokal partiya başlamazdan əvvəl əsas mövzuya əsaslanan kiçik instrumental giriş verilir. Misir xalq mahnı işləmələrinin əksəriyyətində isə ümumiyyətlə instrumental girişə yer verilmir.

25. Təhlil etdiyimiz bəzi Misir xalq mahnısı nümunələrində iki hissəlilik müşahidə olunur. İkinci hissədə əsas melodiya bəzən yuxarı və aşağı registrlər arasında dəyişir.

26. İkisəsliliklə müşayiətə bir sıra Azərbaycan xalq mahnılarında o cümlədən, "Azərbaycan türk el nəğmələri" məcmuəsinə daxil olan "Küçələrə su səpmişəm", "El yallı" kimi nümunələrdə də rast gəlinir. Misir xalq mahnılarından fərqli olaraq, bu mahnıların müşayiətinə bəzən akkord da daxil edir ki, bu da səslənmədə rəngarənglik yaradır.

27. Misir xalq mahnı işləmələri arasında polifonik fakturaya malik xoral tipli nümunələr də yer alır. Azərbaycan xalq mahnı işləmələrində isə polifonik faktura xor üçün nəzərdə tutulan nümunələrdə üstünlük təşkil edir. Azərbaycan bəstəkarlarının işləmələrində daha çox səsaltı polifoniya üsullarından istifadə olunması hallarına rast gəlmək olar.

28. Azərbaycan və Misir xalq mahnılarının fortepiano işləmələrinin müqayisəli təhlili zamanı Azərbaycan məqamları və Misir-ərəb məqamları üzərində də dayandıq. Çünki bu mahnılar və onların işləmələri məqamlara əsaslanırlar və biz işləmələrin bu xüsusiyyətini də təhlil etdik. Bu nöqteyi-

nəzərdən, biz Azərbaycan əsas məqamları və Misir-ərəb əsas məqamları haqqında da məlumat verdik. Belə nəticəyə gəlirik ki, məqamlar arasında gələcəkdə xüsusi müqayisəli tədqiqatların aparılmasına da ehtiyac var.

29. Qeyd etmək lazımdır ki, Misir və Azərbaycan xalq mahnı işləmələri arasındakı fərqlər çoxdur. Tədqiqata cəlb edilmiş Misir xalq mahnı işləmələri səs və fortepianoda ifa etmək üçün nəzərdə tutulmuşdur. Bu işləmələrdə vokal partiya fortepiano akkordları ilə verildiyinə görə, onları kiçik fortepiano pyesləri kimi ifa etmək mümkündür. Bunun nəticəsində Misir xalq mahnı işləmələrində fortepiano partiyası, faktiki olaraq, işləmənin obyekti kimi çıxış edir. Onlardan fərqli olaraq Azərbaycan işləmələrində müşayiət mahnının xarakterini ifadə etmək üçün əsas ifadə vasitəsi kimi iştirak etmir. Deyilənlər səs və fortepiano üçün nəzərdə tutulan işləmələrə aiddir - bu işləmələrdə bəstəkar mahnının xarakterinin çatdırılmasını daha çox vokal ifaçıya həvalə edir, fortepiano isə yalnız müşayiətçi kimi çıxış edir.

30. Beləliklə, Azərbaycan və Misir xalq mahnılarının işləmələrinin müqayisəli təhlili aralarında fərqli və oxşar cəhətlərin mövcudluğunu təsdiq edir.

Misir və Azərbaycan xalqlarına məxsus mahnıların fortepiano işləmələrinin bizim tərəfimizdən bir yerə toplanılması və müqayisəli tədqiq olunması onların gələcəkdə hər iki ölkədə geniş təbliği, yayılması, ifası, tədrisi və araşdırılması baxımından vacib elmi-praktik əhəmiyyətə malikdir. Mahnı nümunələrinin müqayisəli araşdırılmasının hər iki ölkədə bu sahədə aparılan fəaliyyətin daha da genişlənməsinə və yeni perspektivlər qazanmasına müəyyən elmi töhvə olduğunu düşünürük. İnanırıq ki, bu dissertasiya Misir və Azərbaycan respublikaları arasında musiqi və elmi əlaqələrin daha da inkişaf etməsində musiqişünaslıq üçün maraq və əhəmiyyət kəsb edəcəkdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Misir xalq musiqi alətləri. / XVI Respublika Elmi Konfrans, Bakı – 2012 (konfrans materialı), s. 374-376

2. Misir xalq mahnıları. / XVII Respublika Elmi Konfrans, Bakı – 2012.

3. Misir xalq musiqisi tarixindən. // Harmony.musigi-dunya.az, №12, Bakı - 2013.http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=582&s=1&iss=24

4. Misir musiqisində xalq mahnılarının növləri. // Harmony.musigi-dunya.az, №13, Bakı - 2014. http://harmony.musigi-dunya.az/ RUS/ archivereader.asp?txtid= 583&s=1&iss=25
5. Fortepiano alətinin Misirdə yayılması və Misir xalq mahnılarının ifasında ondan istifadə olunmasının başlanğıcı. // Pedaqoji Universitet Xəbərləri, №4, Bakı - 2014, s. 431-434.
6. Misirli və xalq mahnıları (Misir mədəniyyət və incəsənətinin təbliği). / Gənclərin I Beynəlxalq Mədəni İrs və Turizm formu, Bakı - 2015.
7. Misir və Azərbaycan xalq mahnıları. / I Beynəlxalq Tərəkəmə Çərşənbəsi Folklor Festivalı, Ağsu – 2015.
8. Misir xalq mahnılarının formaları. // Rast Müzikoloji Dergisi, Cilt III, Sayı 2, Türkiye - 2015, s.780-803. http://www.rastmd. com/ File Upload/bs473224/File/1_-_a_m%C9%99qal%C9%994_-hazir_mona_ zedan.pdf
9. Misir xalq mahnılarının müsiqisinin əsas prinsipləri. // Musiqi Dünyası 1/62, ISSN 2219-8474, Bakı - 2015, s. 88-90.
10. Misir xalq mahnılarının təsnifatı. // Qobustan, 3/168, Bakı - 2015, s. 53-57.
11. Misir xalq mahnıları ərəb dünyasının Şərqində və Qərbində... Bu mahnıların əsas xarakterik cəhətləri. // Mədəniyyət.AZ, №6 (292), Bakı - 2015, s. 100-103.
12. Misir xalq çalğı alətləri. // Konservatoriya, №1 (27), Bakı - 2015. s. 73-81.
13. Misir xalq musiqi qrupları. // Mədəniyyət.AZ, №7 (293), Bakı - 2015, s. 82-85.
14. Təxtu Arabi. // Mədəniyyət Dünyası XXIX, Bakı - 2015, s. 151-156.
15. Misir və Azərbaycanda Musiqi - Azərbaycan və Misir xalq mahnıları ilə bağlı. // Yeni Mədəniyyət, 307 say, Mədəniyyət ocaqları üzrə Misir Baş İdarsəi, Qahirə - 2016, s. 142-146.
15- الموسيقا في مصر وأذربيجان (حول الأغاني الشعبية الأذربيجانية والمصرية). // الثقافة الجديدة، العدد 307، الهيئة العامة لقصور الثقافة، القاهرة - 2016م، صفحة 142-146.

**Мона Абделгани Зедан Амер**

# ЕГИПЕТСКИЕ И АЗЕРБАЙДЖАНСКИЕ НАРОДНЫЕ ПЕСНИ И ИХ ФОРТЕПИАННЫЕ ОБРАБОТКИ

## Резюме

Диссертация посвящена египетским и азербайджанским народным песням, а также сравнительному исследованию их фортепианных обработок. Для всестороннего и системного изучения темы было рассмотрено народное песенное творчество, в частности виды, исполнительские, формообразующие, мелодические, ладовые особенности народных песен обоих народов. В исследовании большое место отведено теоретическому анализу обработок народных песен.

**Диссертация состоит из введения, трех глав, восьми разделов, заключения, списка использованной литературы, сайтографии и приложений.**

**Во введении** обосновываются актуальность темы, объект и предмет, цели и задачи,степень изучения и научная новизна, методология, теоретическое и практическое значение исследования.

**Первая глава** называется **"Египетские народные песни (история, виды, строение)"**. Она состоит из четырёх разделов: **1.1 - "Из истории египетской народной музыки"; 1.2 - "Виды народных песен в египетской музыке"; 1.3 - "Формы египетских народных песен"; 1.4 - "Классификация египетских народных песен с точки зрения их географического распространения".** Здесь рассматриваются формы и виды египетских народных песен, зоны их географического распространения и прочие аспекты. В данной главе таже даётся классификация египетских народных инструментов, широко применяющихся при исполнении песен.

**Вторая глава** называется **"Азербайджанские народные песни (виды, строение)"** и состоит из одного раздела - "Виды и строение азербайджанских народных песен". Здесь рассматриваются виды, строение, ладовые и мелодические особенности национальных песен.

**Третья глава** диссертации - **"Фортепианные обработки египетских и азербайджанских народных песен"** включает в себя три раздела: **3.1 - "Появление фортепиано в Египте и начало его применения при исполнении египетских народных песен"; 3.2 - "Фор-**

**тепианные обработки азербайджанских народных песен"; 3.3 - "Сравнительный анализ фортепианных обработок египетских и азербайджанских народных песен".** В данной главе последовательно раскрывается появление и распространение в Египте фортепиано, возникновение обработок народных песен, рассматриваются обработки для этого инструмента азербайджанских народных песен, а также даётся сравнительно-теоретический анализ обработок, осуществлённых в этих странах.

**В заключении** находят своё отражение выводы, полученные в процессе диссертационного исследования, показаны основные итоговые постулаты.

В разделе **"Приложения"** представлены образцы 23 египетских и 19 азербайджанских народных песен, составивших основу исследования, а также основные лады азербайджанской и египетской народной музыки, даётся составленная автором таблица всех обработок азербайджанских народных песен.

**Mona Abdelghany Zedan Amer**

# EGYPTIAN AND AZERBAIJAN FOLK SONGS AND THEIR NOTES FOR PIANO

## Summary

Dissertation is devoted to the Egyptian and Azerbaijani folk songs and their comparative study of piano works. In order to research the theme comprehensively and systematically they were focused on both folk songs, creativity, the classification of folk songs were conducted, types, singing, forms, performance, melody, rhythm features were discovered. There was given wide coverage to the analysis of the folk songs by the theoretical aspects in the dissertation.

**The dissertation consists of introduction, 3 chapters, 8 sections, conclusion (results), list of references, bibliography and attachments.**

**In the introduction** is based actuality of the subject, object of study, goals and objectives, development rate and scientific innovation, methodology, practical materials and theoretical and practical importance of the study.

In the **I chapter of the dissertation – "Egyptian folk songs (history, types, structure)"** - consists of four sections: **1.1 – "From the history of Egyptian folk music"**; **1.2 – "The types of folk songs in Egyptian music"**; **1.3 – "The forms of Egyptian folk songs"**; **1.4 – "Classification of Egyptian folk songs in terms of their geographical proliferation"**. In this chapter provides a historical overview of Egyptian folk songs, forms, types, classification, the emergence of Egyptian folk music groups and their geographical areas proliferation and other features. As well explained folk songs relations were clarified which used in the folk songs performance.

**Chapter II –"Azerbaijani folk songs (types, structure)"** - consists of one section: **2.1 - "The type and structure of Azerbaijani folk songs".** It discusses the types of Azerbaijani folk songs, structure, melody and melodic features.

**Chapter III – "The piano works of Egyptian and Azerbaijani folk songs"** - consists of three sections: **3.1 – "The emergence of the piano in Egypt and the beginning of its use in the performance of Egyptian folk songs"**; **3.2 – "The piano works of Azerbaijani folk songs"**; **3.3 – "Comparative and analysis to the piano works of Egyptian and**

**Azerbaijani folk songs”**. This chapter has revealed the emergence and spread piano instrument in Egypt and its use in the performance of Egyptian folk songs, the piano works of Azerbaijani folk songs and theoretical-comparative analysis of piano folk songs of both people.

In conclusion part theoretical and practical results obtained from the analysis of the dissertation were mentioned.

In the **“Attachments”** section were presented notes of: 23 Egyptian and 19 Azerbaijani folk songs for piano selected to analysis and comparison in the research work; the original melody of Egyptian folk songs; the main maqams of Egyptian and Azerbaijani folk music and a table of all Azerbaijani folk songs for piano and other variations.

Çapa imzalanıb: 15.04.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**МОНА АБДЕЛЬГАНИ ЗЕЙДАН АМЕР**

# «ЕГИПЕТСКИЕ И АЗЕРБАЙДЖАНСКИЕ НАРОДНЫЕ ПЕСНИ И ИХ ФОРТЕПИАННЫЕ ОБРАБОТКИ»

6213.01 – Музыкальное искусство

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку - 2016**